**"Xocalı soyqırımı XX əsrin ən böyük cinayətidir"**

**İlham Əliyev: "Bu gün bizim güclü ordumuz var və bu ordu istənilən halda öz torpaqlarını işğaldan azad edə bilər"**

Prezident İlham Əliyev dünən Goranboy rayonuna gəlib. Dövlət başçısı ümummilli lider Heydər Əliyevin abidəsini ziyarət edib. Dövlət başçısına abidənin ətrafında aparılan abadlıq işləri barədə məlumat verilib.

Bildirilib ki, rayon ərazisində də sürətli quruculuq işləri gedir, bu da rayonun inkişafı istiqamətində atılan mühüm addımlardandır. Dövlət başçısı Goranboyda 688 məcburi köçkün ailəsi üçün nəzərdə tutulan yaşayış məhəlləsinin açılışında iştirak edib. Dövlət başçısı Xocalı rayonundan məcburi köçkün, şəhid ailəsi Sədaqət Ağayarovanın evində olub. Mənzildə yaradılan şəraitlə yaxından tanış olan dövlət başçısı məcburi köçkün ailəsi ilə çay süfrəsi arxasında söhbət edib. Yeni evə köçmələri münasibətilə təbriklərini çatdıran Prezident İlham Əliyev Azərbaycan dövlətinin məcburi köçkünlərin yaşayış səviyyəsinin yaxşılaşdırılması üçün böyük işlər gördüyünü bildirib. Xocalı soyqırımını "20-ci əsrin ən böyük cinayəti" adlandıran dövlət başçısı təəssüflə qeyd edib ki, bu cinayəti törədənlər hələ ki, ədalət qarşısında cavab verməyiblər. Prezident İlham Əliyev bu günün gələcəyinə inandığını vurğulayıb. Dövlət başçısı onu da əlavə edib ki, Azərbaycan dövlətinin siyasəti, xüsusilə də xaricdəki fəaliyyəti nəticəsində Xocalı haqda həqiqətlər dünya birliyinə çatdırılıb. Bu məsələdə həm səfirliklər, həm Heydər Əliyev Fondunun fəaliyyəti nəticəsində bütün ölkələrdə Xocalı həqiqətlərinin çatdırılması üçün müxtəlif tədbirlər görüldüyünü deyib.

Məcburi köçkün Sədaqət Ağayarova onlara göstərilən diqqət və qayğıya görə dövlət başçısına minnətdarlığını bildirib. O, Azərbaycanın 1-ci xanımı, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın və Fondun vitse-prezidenti Leyla Əliyevanın Xocalı ilə bağlı həqiqətlərin bütün dünyaya çatdırılması istiqamətində gördüyü işlərdən razılıq edib.

Prezident İlham Əliyev məhəllədə inşa olunan Xocalı şəhər 1 saylı orta məktəbinin həyətində pəhləvan Məzahir Qəhrəmanovun nümunəvi çıxışına baxdı. Dövlət başçısı gənc ifaçıların çıxışına da tamaşa edib. Sonra Prezident İlham Əliyev yeni məhəllənin sakinləri ilə görüşüb. Dövlət başçısı yeni evlərin istifadəyə verilməsi münasibətilə məcburi köçkünləri təbrik edib. Bildirib ki, işğaldan əziyyət çəkənlərin yaxşı şəraitdə yaşaması üçün burada böyük qəsəbələr salınacaq. "Bu bizim siyasətimizdir" deyən dövlət başçısı Dövlət Neft Fondunun ilk gəlirlərinin məhz bu məqsədlərə yönəldildiyini qeyd edib. Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinə toxunan Prezident İlham Əliyev dövlətimizin məsələni sülh yolu ilə həll etməyə çalışdığını deyib. Bildirib ki, bu gün bizim güclü ordumuz var və bu ordu istənilən halda öz torpaqlarını işğaldan azad edə bilər. Dövlət başçısı vurğulayıb ki, bundan sonra da ərazi bütövlüyümüzün bərpası üçün səylər davam etdiriləcək.

Məcburi köçkün Tamella Bilalova onlara yaradılan şəraitə və göstərilən qayğıya görə dövlət başçısına minnətdarlığını bildirib.

Daha sonra dövlət başçısı Xocalı şəhər 1 saylı orta məktəbində yaradılan şəraitlə tanış oldu. Baş nazirin müavini, Qaçqın və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin sədri Əli Həsənov Prezident İlham Əliyevə Goranboyda 688 məcburi köçkün ailəsi üçün hündürmərtəbəli yaşayış binalarından ibarət məhəllənin baş planı və texniki-iqtisadi göstəriciləri barədə məlumat verdi. Bildirdi ki, dövlət başçısının diqqət və tapşırığı əsasında məcburi köçkünlərin məişət şəraitinin yaxşılaşdırılması məqsədilə inşa olunan bu qəsəbədə bütün lazımi tədbirlər görülüb. Hazırda istifadəyə verilən 3 beşmərtəbəli yaşayış binasında evlərin 40-ı bir otaqlı, 80-ni iki otaqlı, 40-ı üç otaqlı, 5-i isə dörd otaqlıdır. Mənzillərin elektrik, istilik və su ilə təminatı yüksək səviyyədə həyata keçirilib. Məktəbdə yaradılan şəraitlə tanış olan Prezident İlham Əliyevin diqqətinə çatdırıldı ki, iki mərtəbəli məktəb binasının foyesi, sinif otaqları, həyətyanı sahəsi müasir üslubda qurulub, futbol meydançası tikilib. İdman zalında basketbol, güləş və voleybol kimi idman növləri ilə məşğul olmaq üçün bütün şərait yaradılıb, zəruri avadanlıq quraşdırılıb. İnformatika kabineti də müasir kompüterlərlə təchiz olunub. Burada sinif

otaqları ilə yanaşı, fizika və riyaziyyat kabinetləri, kimya laboratoriyası da yaradılıb. Məktəbdə ulu öndər Heydər Əliyevin və Prezident İlham Əliyevin təhsilimizə olan diqqət və qayğısını əks etdirən foto-guşələr yaradılıb. Burada Heydər Əliyev Fondunun təhsillə bağlı həyata keçirdiyi irimiqyaslı layihələrdən bəhs edən guşə də qurulub. Kitabxana zəngin kitab fondu ilə təmin edilib. Tarix, ədəbiyyat, biologiya və digər sinif otaqlarına da müasir dərs avadanlıqları qoyulub.

Prezident İlham Əliyev Xocalı soyqırımı qurbanlarının xatirəsinə ucaldılan abidəni ziyarət edib. Qaçqın və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin sədri Əli Həsənov Prezident İlham Əliyevə məhəllədə həyata keçiriləcək işlərdən danışıb. Dövlət başçısı işlərin keyfiyyətlə aparılması ilə bağlı tapşırıq və tövsiyələrini verib.

Prezident İlham Əliyev şimal-qərb regionuna səfəri çərçivəsində Naftalan şəhərində də olub. Dövlət başçısı burada "Çinar Hotel və SPA Naftalan" kompleksinin, o cümlədən "Qaşaltı" sanatoriyasının açılışında iştirak edib.

**Azad Əliyev**

**Həftə içi.- 2011.- 11 fevral.- S. 2.**